## Nə dəyişdi?

Güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə ödəniş edilərkən ödəmə mənbəyində hesablanaraq tutulan vergi ödənişlər həyata keçirilənədək  büdcəyə ödənilməli idi. Dəyişikliklə bu ödənişlər edilərkən ödəmə mənbəyində hesablanaraq tutulan vergi əvvəlcədən deyil, həmin ödənişlər üzrə hesabat rübündən sonrakı ayın **20-dən gec olmayaraq** bəyan edilməklə büdcəyə ödəniləcəkdir.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

**BAKI — 2024**

DÖVLƏT VERGİ XİDMƏTİ

# Ödəmə mənbəyində vergi tutanların nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan və ödəmə mənbəyində vergi tutulan gəlir əldə edən qeyri-rezident vergi ödəyicisi bəyannamə vermək hüququndan istifadə etdiyi halda, ödəmə mənbəyində tutulmuş verginin qaytarılması tələbi barədə bəyannamə onun təyin etdiyi vergi agenti vasitəsilə də təqdim edilə biləcək.

## Nə dəyişdi?

**01.01.2024-cü il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən,** Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident vergi ödəyicisindən ödəmə mənbəyində tutulmuş verginin qaytarılması tələbi barədə bəyannaməni yalnız qeyri-rezident vergi ödəyicisi tərəfindən təqdim edilməli idi.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

Dəyişikliklə qeyd olunan bəyannamə onun təyin etdiyi vergi agenti vasitəsilə də təqdim edilə biləcək.

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər, o cümlədən mediatorlar
  - muzdlu işçi kimi cəlb etdikləri fiziki şəxslərə ödədikləri əmək haqlarından,
  - uçotda olmayan fiziki şəxslərə ödənilən faizlərdən,
  - icarə haqlarından,
  - royaltidən,
  - maddi yardım,
  - mükafat və təqaüdlərdən,
  - qeyri-rezidentlərə iş və xidmətlərə görə aparılan ödənişlərdən
  - ödəmə mənbəyində vergini tutmalı və bu barədə vergi orqanına müvafiq olaraq "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)" və "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi" təqdim edilməlidir.

**Nə dəyişdi?**

Ödəmə mənbəyində vergi tutmaq öhdəliyi hüquqi şəxslər və fərdi sahibkarlarla yanaşı, vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən şəxslər və mediatorlara də aid edilmişdir.

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə,
  - o cümlədən onların digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə,
  - habelə güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə olan bank hesablarına rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri,
  - habelə vergi orqanında uçotda olmayan rezident fiziki şəxslər tərəfindən birbaşa və ya dolayısilə edilən ödənişlərdən ödəmə mənbəyində **10 faiz** dərəcə ilə hesablanaraq tutulan vergi hesabat rübündən sonrakı **ayın 20-dən gec olmayaraq** "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi" ilə bəyan edilməklə büdcəyə ödəniləcəkdir.